

Ələsgər Siyablı

# Ukrayna -Türklərin qədim Vətəni

***Rusiyanın Ukraynaya qarşı yürütdüyü işğalçılıq siyasəti bu ölkənin tarixinə marağı artırmışdır.***

***Bununla əlaqədar mətbuat və sosial şəbəkələrdə Ukraynalıların etnik mənşə baxımından türk olduqları haqqında səthi və tarixi mənbələrə əsaslanmayan bəzi fikirlər səsləndirilmişdir.***

***Mövzunun xalqımız üçün də böyük maraq kəsb etdiyini nəzərə alaraq mənim "Turan-drevneyşaə istoriə mira" kitabımda tarixi mənbələrə əsasən Ukraynanın türklərin qədim vətəni olmasını özündə əks etdirən bölmənin qısaldılmış variantını diqqətinizə təqdim edirəm.***

Rusiya və Ukrayna qədim tarixini araşdırmadan öncə belə bir fikri qeyd etməyi lazım bilirik ki, prototürk adlandrılan öntürklərin təşəkkül tapdığı və minillər ərzində məskunlaşdıqları bu ərazilərə slavyanların ilkin dəstələri eramızın VIII əsrindən etibarən gəlməyə başlayaraq ilk öncə ucqarlarda məskunlaşmış və tədricən inkişaf edərək etnik qruplar şəklində formalaşaraq geniş əraziyə yayılmışlar.Tarixi inkişafın sonrakı dövrlərində bu ərazilər slavyanların və türklərin ortaq vətənlərinə çevrilmişdir.Sovet dövrü və müasir Rusiya tarix elmi qarşısında duran əsas məqsəd türklərin qədim tarixini saxtalaşdırmaqdan ibarət olmuşdur.

Bir çox müəlliflər Ukraynalıların türklüyünü yanlışlıqla əsas etibarı ilə qıpçaklara bağlayırlar. Halbuki Ukraynada prototürklərin və ilkin türklərin Ukrayna adlanan ərazidə məskunlaşmalarının tarixi daha qədim dövrləri əhatə edir.

İndi Rusiya adlanan ölkənin Altay dağlarından başlamış Ural dağları arasındakı Qərbi Avrasiya ərazisində Turan etnosu təşəkkül tapmış və tarixi mənbələrdə ilkin Turan adlanmışdır.

Slavyanlar Ukrayna ərazisində məskunlaşmadan yüz illər öncə bu coğrafiyanın əsas sakinləri türklərdən ibarət olmuşdur.Ukrayna ərazisinin və bütövlükdə Qara dənizin şimalının ən qədim sakinləri və burda ilkin uyqarlığın yaradıcıları rus müəlliflərinin skif, qərb müəlliflərinin isə iskit adlandırdıqları prototürk saklar və avropalıların kimvir adlandırdıqları prototürk kimmer/qmirlər olmuşlar. İskit/sak dövlətinin mərkəzini təşkil etdiyindən tarixi ədəbiyyatda Ukrayna ərazisinin qədim adı Skifiya və Kimmeriya kimi ifadə olunur.

İskitləri və ya skifləri bu ərazilərdə sarmatlar,hunlar, qotlar,oqurlar,xəzərlər,kumanlar, quzlar, qıpçaqlar, peçeneqlər və Qızıl Orda dövləti əvəz etmişdir.

Böyük tarixçi Lev Qumilyov şərqi slavyanların tarix səhnəsinə VIII əsrdən etibarən qədəm qoyduqlarını yazır.

Şərqi slavyanda ilk dövlət Ukrayna ərazisində yaranan Kiyev rus dövləti hesab olunur.Kiyev rus dövlətinin türk,varyaq,slavyan mənşəinə malik olmasına dair müxtəlif tezislər irəli sürülsə də



**İndi Rusiya adlanan ölkənin Altay dağlarından başlamış Ural dağları arasındakı Qərbi Avrasiya ərazisində Turan etnosu təşəkkül tapmış və tarixi mənbələrdə ilkin Turan adlanmışdır. Slavyanlar Ukrayna ərazisində məskunlaşmadan yüz illər öncə bu coğrafiyanın əsas sakinləri türklərdən ibarət olmuşdur.Ukrayna ərazisinin və bütövlükdə Qara dənizin şimalının ən qədim sakinləri və burda ilkin uyqarlığın yaradıcıları rus müəlliflərinin skif, qərb müəlliflərinin isə iskit adlandırdıqları prototürk saklar və avropalıların kimvir adlandırdıqları prototürk kimmer/qmirlər olmuşlar. İskit/sak dövlətinin mərkəzini təşkil etdiyindən tarixi ədəbiyyatda Ukrayna ərazisinin qədim adı Skifiya və Kimmeriya kimi ifadə olunur...**

***Bu dövlətin yaradılışdan etibarən türklərə məxsus olduğu tarixi mənbələr əsasında sübut olunmaqdadır.***

***Ukrayna adı ilk dəfə ölkə adı olaraq 1187-ci ildə İpatyev səlnaməsində Qalisiya bölgəsi kimi "Ukrayna Qaliçskaya" şəklində çəkilmişdir.***

***Bir çox rus və ukraynalı araşdırıcılar və o cümlədən Ukraynanın görkəmli tarixçisi M.S.Qruşevski Ukrayna adının "sərhəd ərazisi" anlamında Gkrayn" və ya Gvkrayn" sözündən yarandığı fikrini irəli sürmüşlər.***

***Bir çox ukrayna tarixçisi isə Ukrayna adının ölkə və yer mənasında "kray" və ya "kraina" sözlərindən yarandığı fikrini irəli sürürlər.***

Tarixi faktlar göstərir ki, Skifiya, Kimmeriya,Hun dövləti,Qotların dövləti,Bosfor çarlığı,Xəzər xaqanlığı,Avar xanlığı,Bulqar dövləti,Oqur dövləti,Rus xaqanlığı kimi ən qədim dövlət təşəkkülləri Rusiya ərazisində deyil,Şərqi Avropada məhz Ukrayna ərazisində mövcud olmuşdur.Bu baxımdan Ukraynanın dövlətçilik ənənləri tarixən Rusiyadan daha qədimdir.

P.Qolubovski, D.Rasovskiy, O.Pritzak, P.Toloçko, V.Markov və.s. kimi müəlliflər türk tayfa birliklərinin Ukrayna tarixində və Ukrayna xalqının etnogenezinin formalaşmasın oynadıqları rolu araşdrılmasına konkret əsərlər həsr etmişlər.

Ukrayna xalqı türk-slavyan etnik birliyi nəticəsində yaranmış etnosdur.Tarixən türklərin vətəni olan Ukrayna slavyanlar VIII əsrdən etibarən tarix səhnəsinə qədəm qoyduqdan sonra hər iki etnosun ortaq vətəninə çevrilmişdir.

Ukrayna tarixçisi P.Qolubovski yazır ki,.Türklərin axınlarla gəlib yüz illər ərzində Qara dənizin şimal ərazilərində məskunlaşmaları bu əraziləri onların daimi yaşayış məskənlərinə ,vətənlərinə çevirmiş oldu

Ukraynanın böyük tarixçisi və dövlət xadimi M.Qruşevski V-VI əsrlərdə Ukraynanın meşəçöl zonasında məskunlaşmış türk mənşəli hesab etdiyi antları Ukrayna xalqının birbaşa əcdadları hesab edir.

Y.Daşkeviç,M.Brayçevskiy,Y.İsayeviç,Q.Povtarak,V.Baran kimi Ukrayna tarixçiləri də Qruşevskinin bu tezisini dəstəkliyirlər.Ant tezisinin tərəfdarları bu məsələdə O.Potebninin, A.Krımskinin, İ.Oqienkonun linqvistik təhlillərini əsas götürürlər.

Ukrayna alimlərinin Ukrayna etnogenezində Ant amilinin əsas götürülmələri rus və russovet tarixçilərinin Ukrayna-rus vahid etnik mənşəi haqqındakı rəsmi Gqədim rus xalqı" tarixiideoloji konsepsiyasına qarşı qoyulmuş və müstəqillik dövründə Ukrayna elmi dairələrində geniş rəğbət görmüşdür.

Son dövrlərdə linqvistik və arxeoloji dəlillərlə daha da əsaslandrılan Ukraynalıların ruslardan fərqli özəl etnik kökə malik olmaları haqqındakı konsepsiya orta əsrlərdə vahid slavyan dili və vahid slavyan etnosunun mövcudluğunu inkar etməkdədir.

***Rus tarixçisi V.Markov yazır ki, IV əsin axırlarından XVIII əsrə qədər Ukrayna çölləri müxtəlif türk tayfalarının fasiləsiz şəkildə məskunlaşdığı ərazilər olmuşdur. Türklərin min il ərzində bu ərazidə mövcudluğu Ukraynalıların dilində, mədəniyyətində və xarici görünüşlərində dərin izlər buraxmışdır.Bu gün də Ukraynalılar özləri də fərqinə varmadan dillərində türk sözləri işlədir,türk adı daşıyan yaşayış məskənlərində yaşayır, türk soyadları daşıyır və bir qismi də antropoloji cəhətdən türk xalqlarının tipik nümayəndəsi görkəminə malikdirlər.***

Ukrayna adının türk dili etimalogiyası əsasında izah edən fikirlər də mövcuddur.Ölkənin adı qədim slavyandilli səlnamələrdə iki formada, Ukrayna və Okraina şəklində yazılır.

Bir çox tarixçilər Ukraynalıların etnik kökünün türklərin təşkil etdiklərini və Ukrayna adının türklərin Oqur tayfa adından yarandığı fikrini irəli sürürlər.

Bu fikri müdafiə edən müəlliflərdən biri olan polşa tarixçisi Tadeuş Çzacski Ukraynalıların slavyanlara heç bir aidiyətlərinin olmadığını və onların əcdadlarının VII əsrdə Volqa çayının arxasından gələn uqur/oqur ordası olduğunu yazmışdır.Çzacski Ukrayna adının da kökündə Oqur etnoniminin durduğu haqqında qətiyyətlə fikir irəli sürür.

Alman alimi M.Fasmer "Rus dilinin etimoloji lüğəti" əsərində Ukrayna adının qədim slavyan dilində Ouqrin şəklində yazıldığını və bu terminin ilk öncə Ukraynanın şərq ərazisinə aid olduğunu yazır.

***Tarixi qaynaqlar və linqvistik dəlillər Ukrayna adının kökünün Oqur və ya Onoqur türk tayfa birliyinin adına bağlı olduğunu və Ukrayna adının Oqur adının sonuna slavyan dillərinə xas Gin" mənsubiyyət şəkilçisi artırmaqla Oqurin və ya Fasmerin də təsbit etdili kimi Ouqrin şəklini almış olduğunu sübut edir.Türklərin Ouqrin tayfa adı tədricən Ukrain formasına dönüşmüşdür.***

**"Turan-drevneyşaya istoriya mira" kitabından**

(ardı gələn sayımızda)